# Azərbaycan ziyalıları və Güney mövzusu

**Tarixi Azərbaycan torpaqlarının XIX əsrin əvvəllərində Romanovlar və Qacarlar hakimiyyəti arasında bölünməsindən sonra bu misilsiz tarixi faciə Arazın hər iki tayında şifahi xalq yaradıcılığının və yazılı əsərlərin ağrılı mövzusu olub, qanı axan yara kimi bədii-sənədli xronikalar silsiləsinə çevrilib.**




Güneydə fars rejimi son bir əsrdə soydaşlarımızın mənəvi dünyasını məngənəyə salıb, bu isə milli bəlaların açıq ifadə edilməsini buxovlayıb. Güney mövzusuna bu tayda da müəyyən fasilələrlə qadağalar qoyulub, lakin ərsəyə gələn əsərlər, aparılan araşdırmaların materialları bütöv bir kitabxana təşkil edir.

Tədqiqatçıların hazırladığı, Milli Kitabxananın nəşr etdiyi “Güney Azərbaycan” toplusunda Arazın bu tayında yaradılmış yazılı əsərlərin biblioqrafik göstəricisi əksini tapıb. Kitabın əvvəlində bildirilir ki, zaman-zaman İranda türklərə qarşı edilən təcavüzlər, onların milli istiqlal və milli kimlik uğrunda apardıqları mücadilələr hələ XIX əsrin II yarısından etibarən Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə və başqa ədib, publisist və ictimai xadimlərin əsərlərində bu və ya digər şəkildə öz əksini tapıb.

Xatırladaq ki, 1813-cü ildə Gülüstan sülh müqaviləsinin imzalanmasından sonrakı illərdə Şimali azərbaycanlılar Güneylə mədəni əlaqələrini davam etdirmişdilər. Bu illərdə Abasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin fars dilinin tədqiqi ilə bağlı apardığı araşdırmalar, M.F.Axundovun Mirzə Mülküm xan Nizamüddövlə ilə qurduğu ədəbi əlaqələr, Mirzə ağa Təbrizinin M.F.Axundovla məsləhətləşərək və onun əsərlərinin təsiri ilə yazdığı dram əsərləri Güney mövzusunda ilk mənbələrə kimi diqqəti cəlb edir.

Sonrakı dövrdə Tehranda yaranmış, Təbrizdə də yerli şöbəsi olan İran Demokrat Partiyasının qurulmasında türklər mühüm rol oynamışdı. Partiyanın rəhbəri Seyid Həsən Tağızadə idi. Bu partiyanın Tehrandakı “İrane-nou” qəzetini Məhəmməd Əmin Rəsulzadə, Təbrizdəki “Şəfəq” qəzetini Mirzə Hacıağa Rzazadə (Rzazadə Şəfəq) redaktə etmişdi. Məşrutə inqilabı dövründə Azərbaycanda 50-yə yaxın qəzet və dərgi çıxırdı. Bunlardan 8-i türkcə-farsca, biri türkcə, qalanları isə farsca nəşr edilirdi. Tehranda çap edilən bir çox qəzetin təsisçisi və redaktoru da türklər idi.

Əhməd bəy Ağaoğlu 1911-ci ildə “Türk yurdu” dərgisində çap etdirdiyi “Türk aləmi” adlı silsilə məqalələrində İrandakı türklər haqqında məlumat vermişdir. Burada o, yerli türklərin milli şüur baxımından geridə qaldığını bildirirdi. Məhəmməd Əmin Rəsulzadənin 1912-ci ildə İstanbulda çap etdirdiyi “İran türkləri” silsilə məqalələri isə burada yaşayan türklər haqqında geniş araşdırmadır. Silsilənin ilk iki məqaləsi İranın, xüsusilə Güney Azərbaycanın coğrafi, etnodemoqrafik təsnifatına həsr edilmişdi. Sonrakı məqalələrdə isə İranın dövlət həyatında iki əsas etnosun – türklər və farsların rolundan bəhs edilmişdi.

Məhəmməd Əmin son 500 ildə İran dövlətçiliyinin iki amilə – türklərin “qüvvətli bazalarına, cəngavərlik səciyyələrinə” və “fars mədəniyyətinin mənəviyyatına” əsaslandığını yazmışdı. Bu yazının ən mühüm hissəsi türklərin məşrutə inqilabındakı fəaliyyətinə həsr edilmişdi. Müəllif burada bildirmişdi ki, “Fransa inqilabında Marsel, Osmanlı inqilabında Selanik nə idisə, məşrutə inqilabında da Təbriz odur”. Məqalənin sonuncu hissəsi qaşqaylara, onların haqqında etnoqrafik məlumatlara həsr edilmişdi.

Mirzə Ələkbər Sabirin də yaradıcılığında Güney Azərbaycan, məşrutə inqilabı özünəməxsus yerlərdən birini tuturdu. Sabir şeirlərində öz təmiz və səmimi niyyətini inqilab mübarizlərinə, xüsusən Səttarxana hörmətli bir dillə bildirir, onun igidliyini tərənnüm edirdi. Sabir öz şeirləri ilə inqilaba və inqilab ədəbiyyatına böyük xidmət göstərmişdir.

Məşrutə dövrü ədəbiyyatın inkişafında “Molla Nəsrəddin” jurnalının da özünəməxsus rolu vardır. Jurnalın təsisçisi və redaktoru Cəlil Məmmədquluzadə nəinki təkcə öz əsərlərinin nəşri ilə məşrutə dövrünün siyasi-ədəbi inkişafına təkan verdi, eyni zamanda “Molla Nəsrəddin“ jurnalını nəşr etdirməklə Azərbaycan mübarizləri ilə çiyin-çiyinə vuruşmuşdu. İranda mətbuatın inkişafında “Molla Nəsrəddin”in təsiri danılmazdır. Bu jurnalın 1921-ci ildə Təbrizdə 8 nömrəsi işıq üzü görmüşdü.

XIX əsrin sonu –-XX əsrin əvvəllərində bir çox ziyalılarımızın həyat və yaradıcılığı Güneylə sıx bağlı olmuşdur. Dahi Hüseyn Cavid, şərqşünas alim Məhəmməd ağa Şahtaxtlı, teatr xadimi Sidqi Ruhulla, aktyor-rejissor Abbas Mirzə Şərifzadə, Məmmədrza Vaizzadə, Hidayət bəy Tarıverdiyev, Mirzəbala Məmmədzadə və s. fəaliyyətlərində Arazın o tayına rəğbətlərini açıq ifadə etmişlər.

“Gülüstan” və “Türkmənçay” müqavilələrinin yaratdığı milli ayrılıqdan sonra, demək olar ki, Azərbaycan ədəbiyyatında İran, Güney Azərbaycan, Araz tematikası mühüm əhəmiyyət kəsb edirdi. Əbdürrəhim bəy Haqverdiyev 1907-ci ildə yazdığı “Əhmədin qeyrəti” hekayəsini Güney Azərbaycanda gedən milli azadlıq mübarizəsinə həsr etmişdir. C.Cabbarlının “Nəsrəddin şah”, “Araz çayı”, M.S.Ordubadinin “Dumanlı Təbriz”, S.Vurğunun “Təbriz gözəli” Güney Azərbaycana, Təbrizə həsr edilmiş əsərlərdəndir. 1928-ci ildə M.Kazıminin “Qorxulu Tehran” əsəri farscadan Azərbaycan dilinə tərcümə edilərək Bakıda nəşr olunmuşdu.

1940-cı illərdən etibarən Təbrizdə bu taydan gedən böyük bir ziyalı ordusu fəaliyyət göstərmişdir. Xüsusilə II Dünya müharibəsi illərində görkəmli dövlət xadimi Əziz Əliyev alay polkovniki rütbəsində siyasi rəhbər kimi Güney Azərbaycana səfər etmiş, Təbrizdə, Urmiyada, Ərdəbildə, Mərənddə, Zəncanda olmuşdu. Onunla bu səfərdə bütöv bir ziyalı qrupu müşayiət etmişdir. Qulam Məmmədli, Mehdixan Vəkilov, Osman Sarıvəlli, Süleyman Rüstəm, Rəsul Rza, İmam Mustafayev, Əhəd Bağırzadə, Cabbar Məcnunbəyov, Ənvər Məmmədxanlı, Qılman İlkin, İsrafil Nəzərov, İmran Qasımov kimi ziyalılar “Əziz Əliyev qrupu”nun tərkibində idilər.

Bu dövrdə Təbrizdə “Vətən yolunda” adlı Azərbaycan dilində çıxan ordu qəzetinin redaktorluğu Mirzə İbrahimova tapşırılmışdı. Bu qəzetlə yanaşı, Urmiyada Zülfəli İbrahimovun redaktorluğu ilə “Qızıl əsgər”, Rəştdə isə Xasay Vəzirovun redaktorluğu ilə “Sərbaze-sorx” (fars dilində) qəzetləri çıxırdı. Sovet-alman cəbhəsində vəziyyətin gərginləşməsi ilə Güney Azərbaycanda olan siyasi işçilər – “Əziz Əliyev qrupu” geri çağırıldı.

1944-cü ildə müharibənin rusların xeyrinə dəyişməsi ilə Moskva Güney Azərbaycan məsələsinə yenidən qayıtdı və oraya yeni işçi qrupu göndərdi. 1945-ci ildə Azərbaycanın İranla Mədəni Əlaqələr Cəmiyyəti yaradıldı. Bu quruma Səməd Vurğun rəhbərlik edirdi. Cəmiyyətin çap orqanı olan “Azərbaycan” jurnalı isə 1945-ci ilin avqustundan Rəsul Rzanın redaktorluğu ilə nəşr olunurdu. Jurnal yüksək polioqrafik səviyyədə olub 30 min tirajla çıxırdı. Jurnalın səhifələrində “ayrılıq” və “həsrət” mövzuları ədəbiyyatda, demək olar ki, yeni bir cərəyan yaratmışdı.

Bu ədəbi proses Süleyman Rüstəmin şeirləri ilə başlamış, Rəsul Rzanın “Hilal”, güneyli şairlərdən Mir Mehdi Etimadın “Yaşamaz”, Əli Fitrətin “Azərbaycan”, Hilal Nasirinin “Köşkü-balaban” şeirlərində, sonralar Məmməd Səid Ordubadi, Əvəz Sadıq, Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Məmməd Rahim, Cəfər Xəndan, Mirzə İbrahimov və çox sayda yazıçı-şair və ədəbiyyatşünasın yaradıcılığında həsrət, birlik və ümid mövzusuna çevrilmişdi.

Bütün bu əsərlər Azərbaycanın şimalında hər zaman Güneyə, xüsusilə də Təbrizə böyük maraq yaratmışdır. Ömründə bir dəfə də olsun Təbrizi görməyən insanların həsrətini az da olsa, anlamaq olar. Amma Təbrizi min dəfə görən insanlar da Təbriz həsrəti çəkir.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***

*Səməd Vurğun*

## Yandırılan kitablar

*(İranda Azərbaycan dilində kitabların yandırılmasına etiraz)*

**Cəllad! Sənin qalaq-qalaq yandırdığın kitablar**
**Min kamalın şöhrətidir, min ürəyin arzusu…**
**Biz köçürük bu dünyadan, onlar qalır yadigar,**
**Hər vərəqə nəqş olunmuş neçə insan duyğusu.**
**Min kamalın şöhrətidir, min ürəyin arzusu…**

**Yandırdığın o kitablar alovlanır…Yaxşı bax!**
**O alovlar şölə çəkib şəfəq salır zülmətə…**
**Şairlərin nəcib ruhu məzarından qalxaraq,**
**Alqış deyir eşqi böyük, bir qəhrəman millətə;**
**O alovlar şölə çəkib şəfəq salır zülmətə…**

**Cəllad! Mənim dilimdədir bayatılar, qoşmalar,**
**De, onları heç duydumu sənin o daş ürəyin?**
**Hər gəraylı pərdəsində min ananın qəlbi var…**
**Hər şikəstəm övladıdır bir müqəddəs diləyin;**
**De, onları heç duydumu sənin o daş ürəyin?**

**Söylə, sənmi xor baxırsan mənim şeir dilimə?**
**Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!**
**Sənmi “türkəxər” deyirsən ulusuma, elimə?**
**Dahilərə süd vermişdir Azərbaycan gözəli,**
**Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!**

**Cəllad! Yanıb od olsa da, külə dönməz arzular,**
**Təbiətin ana qəlbi qul doğmamış insanı!**
**Hər ürəyin öz dünyası bir səadət arzular,**
**Qanlar ilə yazılmışdır hər azadlıq dastanı…**

**Nədir o dar ağacları, de kimlərdir asılan?**
**Oyuncaqmı gəlir sənə vətənimin haqq səsi?**
**Dayan!… Dayan! Oyaq gəzir hər ürəkdə bir aslan.**
**Boğazından yapışacaq onun qadir pəncəsi,**
**Oyuncaqmı gəlir sənə vətənimin haqq səsi?**

**Bir varaqla tarixləri, utan mənim qarşımda,**
**Anam Tomris kəsmədimi Keyxosrovun başını?**
**Koroğlunun, Səttarxanın çələngi var başımda.**
**Nəsillərin qoymayacaq daş üstündə daşını,**
**Anam Tomris kəsmədimi Keyxosrovun başını?**

**Sür atını, dördnala çap! Meydan sənindir… Ancaq,**
**Mən görürəm al geyinib gələn bahar fəslini…**
**Qoca Şərqin günəşidir yarandığım bu torpaq,**
**Mən yetirdim al bayraqlı inqilablar nəslini,**
**Mən görürəm al geyinib gələn bahar fəslini!**

***1947-ci il***

Xalq qəzeti .- 2022.- 15 dekabr.- S.12.